# Regionların inkişafı hər zaman dövlətimizin prioritet saydığı məsələlərdəndir

**Ölkə Prezidenti cənab İlham Əliyevin regionlara səfərləri çərçivəsində müxtəlif təyinatlı obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirakı dövlət başçısının şəhər və rayonlarımızın inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir**



**Prezident İlham Əliyev ölkəmizin bugünkü inkişafını təmin etmək, xoşbəxt gələcəyini qurmaq istiqamətində məqsədyönlü fəaliyyətinə görə xalqımızın dərin rəğbət və məhəbbətini qazanıb. Son on iki ildə dövlət başçısının həyata keçirdiyi sosial-iqtisadi strategiya Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarıb.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə son on iki ildə Azərbaycanda əldə edilən sosial-iqtisadi uğurların əsasında dahi Heydər Əliyevin siyasi kursu dayanır. Dövlətimizin başçısı ölkəyə rəhbərliyə başladığı 2003-cü ilin oktyabrından daim Ulu Öndərin siyasi kursuna sədaqətini nümayiş etdirib, xalqın etimadını əməli fəaliyyəti ilə doğruldub. Xalqımız və müstəqil dövlətimiz üçün alternativsiz olan bu siyasi kurs dövlət başçısının uğurlu fəaliyyətinin başlıca amili sayılır. Ölkəmizin davamlı sosial-iqtisadi inkişafının təmin olunmasında, makroiqtisadi sabitliyin qorunmasında, dünya iqtisadi böhranının mənfi təsirinin qarşısının alınmasında dövlət başçısının böyük uzaqgörənliklə apardığı iqtisadiyyatın şaxələndirilməsi siyasətinin, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan regionların inkişafı strategiyasının müstəsna əhəmiyyəti vardır.

Hazırda iqtisadiyyatın dinamik inkişafı, görünməmiş yüksəliş, tərəqqi Azərbaycanın şəhər və kəndlərinin simasını dəyişir, insanların həyat tərzini yeniləşdirir. Genişmiqyaslı Dövlət proqramları həyata keçirilir, xalqımızı düşündürən sosial-iqtisadi problemlər həll edilir. İstehsal və sosial infrastruktur obyektləri yaradılır, yeni iş yerləri açılır. Təhsilə, elmə, mədəniyyətə, səhiyyəyə, idmana dövlət qayğısı artır. Aqrar sahədə müsbət dinamika davamlı xarakter alır.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları respublikanın iqtisadi inkişafının mühüm təkanvericisi missiyasını yerinə yetirməklə, eyni zamanda, vətəndaşların sosial rifahının yüksəldilməsində müstəsna rol oynayır. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci ilinin yekunlarına həsr olunmuş konfransda bütün məsələlər barədə ətraflı bəhs edildi. Regionların inkişafı, sahibkarlara verilən dəstək, qeyri-neft sektorunun inkişafı, idxaldan asılılığın azaldılması, ixrac potensialının yaradılması son illərin uğurlarıdır. Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafına yönəldilmiş üçüncü Dövlət Proqramının bir il yarımı artıq arxada qalıb. Bu, bir daha onu göstərir ki, 2004-cü ildən - birinci proqram qəbul ediləndən ölkənin bütün şəhər və rayonlarının tarazlı şəkildə inkişafı üçün başlanan işlər uğurla davam etdirilir. 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramının uğurla reallaşdırılması sayəsində Azərbaycanın əksər bölgələri ilə paytaxt arasında fərq minimuma enib, regionlar iqtisadi güc amilinə çevrilib. Hazırda Azərbaycanın bütün regionlarında tarixən formalaşan ənənələr, yerli əmək və xammal ehtiyatları nəzərə alınmaqla yaradılan müasir istehsal müəssisələri uğurla fəaliyyət göstərir.

Ölkə Prezidentinin bölgələrə səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması dövlətimizin başçısının regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir.

Regionların inkişafı hər zaman dövlətimizin prioritet saydığı məsələlərdəndir. Bu sahədə ən böyük addımlar bu məsələ üzrə qəbul edilən Dövlət proqramlarının uğurlu icrası ilə təmin edilir. Bu gün yüksək səviyyəli inkişaf hər bir bölgədə, hər bir rayonda nəzərə çarpmaqdadır. Bütün rayonlarda inkişaf, abadlıq, quruculuq, sosial layihələrin icrası prosesi gedir. Regionlarda yaradılan yeni sənaye müəssisələri ölkəmizin uzunmüddətli inkişaf strategiyasını müəyyən edən əsas məqamlardandır. Bölgələrdə işsizliyin aradan qaldırılması, kənd təsərrüfatının inkişafına göstərilən dəstək, dövlət tərəfindən subsidiyaların ödənilməsi, özəl sektora dəstək bölgələrin paralel və sürətli inkişafını özündə ehtiva edir. Ölkəmizdə sahibkarlara yüksək səviyyədə dəstək verilir, hər il Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara vəsaitlər, kreditlər verilir. Təsadüfi deyil ki, bu ilin ilk altı ayı ərzində 2972 sahibkara 96 milyon manat həcmində güzəştli kreditlər verilib.

Bundan başqa, bölgələrdə sosialyönümlü layihələrin həyata keçirilməsi də sürətlə davam etdirilir. Son illərdə regionlarda məktəb, səhiyyə obyektlərinin tikintisi uğurla davam etdirilir. Ümumiyyətlə, Azərbaycan dövləti qarşısına qoyduğu vəzifələrdə bütün sahələr üzrə paralel inkişafı hədəf götürür.

Regionların inkişafı ilə bağlı əldə edilən uğurların bir səbəbi də odur ki, cənab İlham Əliyev bölgələrdə reallaşdırılan bütün layihələrin icrasını daim diqqət mərkəzində saxlayır, verdiyi tapşırıqların yerinə yetirilməsinə nəzarət edir, zəruri tədbirlər həyata keçirir. Bu yaxınlarda ölkə Prezidenti İlham Əliyevin Xızı və Siyəzən, Kürdəmir və Ağsu rayonlarına səfərləri deyilənlərə əyani sübutdur. Prezident İlham Əliyev Xızı rayonunda suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq yeni inşa olunan Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimində iştirak edib. Qeyd edək ki, Prezident İlham Əliyev 2014-cü il iyul ayının 22-də Xızı rayonuna səfəri zamanı yeni inşa olunan Taxtakörpü-Ceyranbatan kanalından rayonun yeni suvarılan torpaq sahələrinə suyun verilməsi və mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması üçün suburaxıcı qurğunun təməlinin qoyulması mərasimində iştirak etmiş və bu işlərin vacibliyini nəzərə alaraq, onların sürətləndirilməsi üçün müvafiq tapşırıqlarını vermişdi.

Ölkə Prezidenti İlham Əliyev Kürdəmir və Ağsu rayonlarına səfəri çərçivəsində isə Kürdəmirdə Bayraq Meydanının, körpələr evi-uşaq bağçasının, rayonun Atakişili kəndində tam orta məktəb binasının, Tarix-Diyarşünaslıq Muzeyinin yenidən qurulmasından sonra görülən işlərlə tanış olub. Kürdəmirin Mollakənd-Axtaçı-Öyləqulu kəndlərini birləşdirən yolun, Ağsu-Kürdəmir-İmişli avtomobil yolunun Ağsu-Kürdəmir hissəsinin, Yeni Azərbaycan Partiyası Kürdəmir və Ağsu rayon təşkilatlarının inzibati binalarının, Ağsu İdman Kompleksinin, Ağsu Şahmat Məktəbinin açılışlarında iştirak edib. Dövlətimizin başçısının Ağsuya içməli suyun verilməsi mərasimindəki çıxışı bir daha sübut edir ki, Prezident İlham Əliyev bölgələrdə reallaşdırılan bütün layihələrin icrasını daim diqqət mərkəzində saxlayır.

2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsi regionların inkişafına yönəldilmiş üçüncü Dövlət Proqramında nəzərdə tutulan işlərin daha uğurlu icrasına dəstək verəcək və ərzaq təhlükəsizliyinin daxili istehsal hesabına təmin olunmasında mühüm rol oynayacaq. Əminliklə demək olar ki, bu il də bütün bölgələrdə genişmiqyaslı işlər görüləcək, Azərbaycan kəndi daha da inkişaf edəcək.

Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrasına başlanan 2014-cü ildən bu il iyul ayının 1-dək Azərbaycanda 153 mindən çoxu daimi olmaqla 188 minə yaxın iş yeri açılıb. Cari ilin 6 ayı ərzində isə ölkədə 60,6 min yeni, o cümlədən 48 min daimi iş yerləri yaradılıb. Bu dövr ərzində açılan iş yerlərinin 75,1 faizi qeyri-dövlət sektorunun, 68,8 faizi regionların payına düşür. Həmin müddətdə iş yerlərinin 19,8 faizi Aran, 14,3 faizi Gəncə-Qazax, 7,7 faizi Abşeron, 6,5 faizi Lənkəran, 5,1 faizi Şəki-Zaqatala, 4,4 faizi Dağlıq Şirvan, 4,3 faizi Quba-Xaçmaz, 3 faizi Naxçıvan, 3 faizi Yuxarı Qarabağ, 0,7 faizi Kəlbəcər-Laçın iqtisadi rayonlarında açılıb.

Bu gün Azərbaycanda sosial-iqtisadi inkişafı sürətləndirən mühüm amillərdən biri qarşıya qoyulan hər bir hədəfin reallaşdırılması üçün konkret fəaliyyət proqramlarının işlənib hazırlanmasıdır. Bu baxımdan ölkə regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrasının əhəmiyyətini xüsusi qiymətləndirmək lazımdır. Bu çərçivədə atılan ardıcıl addımlar Azərbaycanda işsizlik probleminin aradan qaldırılması, regionların tarazlı inkişafı, qeyri-neft sektoruna diqqətin artırılması, sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması istiqamətində konkret nəticələrlə müşayiət olunub.

**Orxan Vahidoğlu,**
***“İki sahil”***